Mədəniyyət

3 fevral / 2021

# Mikayıl Müşfiqin yaradıcılığı Qazaxıstanın ədəbiyyat portalında

Qazaxıstanın "Adebiportal.kz" ədəbiyyat portalında Azərbaycanın görkəmli şairi Mikayıl Müşfiqin rus dilinə tərcümə edilmiş "Yenə o bağ olaydı...", "Bizim gözlər", "Könlüm mənə deyir ki..." şeirləri və şairin yaradıcılığı haqqında geniş məlumat dərc olunub.

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində yayımlanan şeirləri rus dilinə tanınmış tərcüməçi Vladimir Qafarov çevirib.

Geniş oxucu kütləsi olan "Adebiportal.kz" öz səhifələrində müntəzəm olaraq Aleksandr Blok, Akutaqava Rünoske, Con Apdayk, Lilian Voyniç, Virciniya Vulf, Herman Hesse, Knut Hamsan kimi dünya şöhrətli yazıçı və şairlərin əsərlərinə yer ayrılır.